# İNTIZARIN HƏQIQƏTI VƏ MƏQAMI

<"xml encoding="UTF-8?>

İNTIZARIN HƏQIQƏTI VƏ MƏQAMI

İntizar üçün müxtəlif mə`nalar deyilmişdir, lakin bu kəlmə barəsində dərindən diqqət yetirməklə onun həqiqi mə`nasını dərk etmək olar. İntizar-gözü yolda olmaqdır ki, bu gözü yolda olmaq da onun zəminlərinə mütənasib olaraq özünə dəyər alır, habelə onun müxtəlif əsər və nəticələri vardır. İntizar-yalnız ruhi və batini bir halət deyil; əksinə, insanın batinindən zahirinə də sirayət edir, onun bütün hərəkət və tədbirlərini qat-qat artırır. Məhz həmin səbəbə görə də rəvayətlərdə intizar ən yaxşı əməl, hətta əməllərin ən yaxşısı kimi təqdim olunmuşdur. Bu halət intizarda olan şəxsi mə`nən formalaşdırır, onun sə`y və fəaliyyətləri üçün xüsusi bir istiqamət icad edir və o cəhət də intizari çəkilən şeylərin həyata keçməsi ilə gerçəkləşir.

Buna əsasən, intizar oturub əli-əli üstünə qoymaqla həyata keçməz. İntizar gözü qapıya dikmək və həsrət çəkməklə sona çatmır; əksinə intizarın həqiqətində hərəkət, inkişaf və qızğın fəaliyyət göstərmək yatmışdır.

Əziz bir qonağın intizarında olan bir şəxs bir an belə, sakit oturmur, daim çalışır və fəaliyyət göstərir, özünü və ətraf mühitini qonağın gəlişi üçün hazırlayır və mövcud olan maneələri aradan qaldırır.

Bizim söhbətimiz misilsiz bir hadisənin intizarında olmaq barədədir ki, gözəllik və kamalda heç oxşarı yoxdur. Elə bir dövranın intizarı çəkilir ki, şadlıq və xürrəmlikdə keçmiş ruzigarlarında heç birində onun misalı və oxşarı yoxdur, dünya belə bir gözəllik dövranını heç vaxt sınaqdan keçirməmişdir. Bu da həzrəti Məhdi (ə)-ın dünya səviyyəli hökumətinin intizarında olmaqdır ki, rəvayətdə o, «fərəcin intizarı» kimi qeyd olunur. Bu iş ibadət və əməllərin ən yaxşısı, hətta bütün

əməllərin qəbul olunması səbəbi kimi qeyd olunur. Peyğəmbəri Əkrəm (s) buyurmuşdur: «Mənim ümmətimin ən yaxşı əməli fərəcin intizarında olmaqdır.»[1]

İmam Sadiq (ə) öz köməkçilərinə belə buyururdu: «Sizi elə bir şeydan agah etməyimmi ki, Allah-təala onun vücudu olmadan bəndələrin heç bir əməlini qəbul etməz?!» Dedilər: «Əlbəttə, buyurun!» Buyurdu: «Allahın yeganəliyinə, İslam Peyğəmbəri Həzrəti Muhəmmədin nübüvvətinə şəhadət vermək, Allahın əmr etdiyi şeyləri iqrar etmək və bizim vilayətimizi qəbul edib düşmənlərimizdən, yə`ni xüsusi şəkildə biz imamların düşmənlərindən bezarlıq etmək, onların (imamların) qarşısında təslim olmaq, təqvalı olmaq, (yaxşı əməllərdə) sə`y göstərmək, özünü (günahdan) saxlamaq və Qaimin intizarında olmaq.»[2]

---

[1] Biharul-ənvar, 52-ci cild, səh 122

[2] Qeybəti Nömani, 11-ci bab, hədis 16, səh 20